◆ **Günel Dəmirəsənoğlu Qızı**

## Dünya

Gah zülmət gecədir, gah nurlu gündüz,
Yaranışdan bəri təzaddı dünya.
Kimsənin olmayıb, olmayacaq da,
Azad yaranıbdı, azaddı dünya.

Ona aşiq olma, min bir könüldən,
Əsla öz ipini buraxmaz əldən,
Namərd insanlarla dostdu əzəldən,
Namərd insan kimi bədzaddı dünya.

Bəsdi ürəyinin yağın əridib,
Ağlama dünyanın varın dərd edib,
Vicdanını alıb, daş-qaş vəd edib,
Neçə tamahkarı aldattı dünya.

Sərvətə, dövlətə, eyləmə tamah,
Çalış dürüst yaşa, bilinməz sabah,
Zalımın əlində bir qanlı silah,
Məzlumun dilində fəryaddı dünya.

Kimi dərd əlindən eyləyir ah-vay,
Kimi kef içində salıb hay-haray,
Xoşbəxtlər gözündə billur bir saray,
Bədbəxlər gözündə bərbaddı dünya.

İnsan alıb satar bu qul bazarı,
Hiylə sərrafıdı, şər xiridarı,
Namərdin, nakəsin himayədarı,
Mərdə divan tutan cəlladdı dünya.